**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№359/6** **28 sentyabr 2023-cü il**

**“ƏL/TMM üzrə qanunvericiliyin pozulmasına dair riskin və onun dərəcələrinin müəyyən edilməsi üçün auditorlar arasında Özünüqiymətləndirmə üzrə sorğu sualları cədvəli” barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2023-cü il 06 fevral tarixli 1/6 nömrəli “Azərbaycan Respublikası Auditorlar Palatasının PL/TMM üzrə nəzarət funksiyalarının təkmilləşdirilməsi barədə” sərəncamının 1-ci bəndinin icrası ilə əlaqədar Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov, B.Qasımova) tərəfindən hazırlanmış “ƏL/TMM üzrə qanunvericiliyin pozulmasına dair riskin və onun dərəcələrinin müəyyən edilməsi üçün auditorlar arasında Özünüqiymətləndirmə üzrə sorğu sualları cədvəli”ni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “ƏL/TMM üzrə qanunvericiliyin pozulmasına dair riskin və onun dərəcələrinin müəyyən edilməsi üçün auditorlar arasında Özünüqiymətləndirmə üzrə sorğu sualları cədvəli” bəyənilsin (əlavə olunur).

2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində “ƏL/TMM üzrə qanunvericiliyin pozulmasına dair riskin və onun dərəcələrinin müəyyən edilməsi üçün auditorlar arasında Özünüqiymətləndirmə üzrə sorğu sualları cədvəli”nin auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

3. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, “ƏL/TMM üzrə qanunvericiliyin pozulmasına dair riskin və onun dərəcələrinin müəyyən edilməsi üçün auditorlar arasında Özünüqiymətləndirmə üzrə sorğu sualları cədvəli”nin auditor təşkilatları və sərbəst auditorlara göndərildiyi vaxtdan iki həftə müddətində “Sorğu sualları cədvəli”nə uyğun olaraq cavabların toplanılması təmin edilsin.

4. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, iki ay müddətində “ƏL/TMM üzrə qanunvericiliyin pozulmasına dair riskin və onun dərəcələrinin müəyyən edilməsi üçün auditorlar arasında Özünüqiymətləndirmə üzrə sorğu sualları cədvəli”nin cavablarının emal olunması və qanunvericilik ilə müəyyən olunmuş tədbirlərin görülməsi məqsədilə müvafiq təkliflərin hazırlanıb təqdim olunması təmin edilsin.

5. Bu qərarın mətni və “ƏL/TMM üzrə qanunvericiliyin pozulmasına dair riskin və onun dərəcələrinin müəyyən edilməsi üçün auditorlar arasında Özünüqiymətləndirmə üzrə sorğu sualları cədvəli” Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**